# Azərbaycanın kosmik sahədə uğurları

**21-25 oktyabr 2019-cu il tarixində ABŞ-ın paytaxtı Vaşinqton şəhərində Beynəlxalq Astronavtika Federasiyasının Baş Assambleyasında keçirilmiş seçkilər zamanı Bakı şəhəri 2023-cü ildə keçiriləcək Beynəlxalq Astronavtika Konqresinə ev sahibliyi etmək hüququnu qazanıb.**

"İki sahil"in sorğusuna cavab olaraq "Azərkosmos"dan bildirilib ki, dünyanın kosmik sahəsindəki aparıcı agentlikləri, elm mərkəzləri və beynəlxalq təşkilatlarının rəhbərləri, eləcə də məşhur alimlər, özəl sektordan olan yüksək səviyyəli peşəkarlar, gənc tədqiqatçılar və tələbələr yarım əsr fasilədən sonra yenidən Bakı şəhərində keçiriləcək Beynəlxalq Astronavtika Konqresində bir araya gələcəklər:

"Cənab Prezident İlham Əliyevin ölkəmizdə kosmik sənayenin inkişafına göstərdiyi xüsusi diqqət və qayğı, seçkiqabağı prosesə verdiyi dəstək sayəsində 2019-cu ildə Beynəlxalq Astronavtika Federasiyasının tədbirləri zamanı aktiv təbliğat-təşviqat kampaniyası aparılıb. Təbliğat-təşviqat kampaniyası çərçivəsində "Azərkosmos" bu ilin 26-28 mart tarixlərində Fransanın Paris şəhərində keçirilən Beynəlxalq Astronavtika Federasiyasının "Yaz toplantıları"nda, daha sonra 24-26 aprel tarixlərində Mərakeş Krallığının Mərakeş şəhərində keçirilən "İnkişaf etməkdə olan ölkələrin kosmik sahə üzrə qlobal konfransı"nda təmsil olunub.

Bakı şəhərinin namizədliyinin uğur qazanmasında bir sıra qurumların, ələlxüsus, Xarici İşlər Nazirliyi, Dövlət Turizm Agentliyi, Azərbaycan Turizm Bürosu, Heydər Əliyev Mərkəzi və Bakı Konqres Mərkəzinin məsuliyyətli, gərgin əməyinin və təcrübəli komanda işinin xüsusi payı vardır. Namizədliyimizin elan edildiyi ilk gündən etibarən aparılan uğurlu təbliğat işi, şəhərimizin turizm və təşkilatçılıq imkanlarının peşəkar şəkildə təqdimatı yekunda Bakının digər namizəd şəhərlər üzərində qələbəsi ilə nəticələnib".

Qeyd edilib ki, Bakı bu mötəbər tədbirə ev sahibliyi etməyə namizəd olan Rio-de-Janeyro, Nyu Dehli və Sinqapur kimi müasir və inkişaf etmiş şəhərləri geridə qoyaraq qalibiyyət əldə edib:

"Konqresin "Qlobal çağırışlar və imkanlar: kosmosa şans verək" mövzusunda paytaxtımızda keçirilməsi kosmik sahədən olan xarici agentlik, şirkət və təşkilatlarla daha sıx əlaqələrin qurulması, ölkəmizə



kosmik texnologiyaların transferi prosesinin sürətləndirilməsi, insan kapitalının inkişafı, eləcə də ölkəmizin beynəlxalq arenada etibarlı tərəfdaş nüfuzunun daha da möhkəmlənməsinə əhəmiyyətli töhfə verəcək. Ölkəmiz kosmik sahədə fəaliyyət göstərən, kosmik sahənin aparıcı qurumlarından - ABŞ-ın "Aeronavtika və Kosmik Tədqiqatlar Milli Agentliyi"nin (NASA), "Fransanın "Milli Kosmik Tədqiqatlar Mərkəzi" (CNES), "Hindistanın Kosmik Tədqiqatlar Təşkilatı" (ISRO), "Yaponiyanın Aerokosmonavtika üzrə Tədqiqat Agentliyi" (JAXA) və sair qurumların 6,000-ə qədər nümayəndəsini və bu sektorun Elon Musk və Ceff Bezos kimi parlaq simalarını bir araya toplayan qlobal konqresə ilk dəfə ev sahibliyi edəcək.

Beynəlxalq Astronavtika Konqresinin Bakı şəhərində keçirilməsi ölkəmizin kosmik sahədə yeni üfüqlərini açmaqda bir vasitə olacaqdır. Cənab Prezident İlham Əliyevin qeyd etdiyi kimi, konqresin Azərbaycanda keçirilməsindən çox böyük dividendlər əldə etməliyik, beynəlxalq əməkdaşlıq daha da geniş vüsət almalıdır".

Vurğulanıb ki, Azərbaycan inkişaf etməkdə olan ölkələr arasında ən sabit, ən çox islahatların aparıldığı, beynəlxalq aləmdə mövcud olan demokratik dəyərlərə xüsusi önəm verilən bir dövlətdir: "Digər bir məqam isə Beynəlxalq Astronavtika Federasiyasının Baş Assambleyasında yekdilliklə Bakı şəhərinin seçilməsi, 40 ölkədən və 100-dan çox şirkətdən aldığımız dəstək məktubları, belə nüfuzlu tədbirə MDB məkanını cəlb etmək iqtidarımız Azərbaycanın regionda lider olduğunun aşkar sübutudur. Həmçinin regionda cərəyan edən hadisələr fonunda ölkəmizdə bərqərar olan sabitlik beynəlxalq tədbirlərin Azərbaycanda keçirilməsinə mühüm zəmin yaradır. Bu baxımdan, yarım əsrlik sükutdan sonra Beynəlxalq Astronavtika Konqresinə MDB məkanında yenə də Bakı şəhərinin ev sahibliyi etməsi heç də təsadüfi hal deyil.

Regionun ən qüdrətli ölkəsi, dünyada söz sahibi olan ölkəmiz genişmiqyaslı forum, konfrans və simpoziumlar, mədəniyyətlərarası dialoqlar, eləcə də mötəbər qurumların tədbirlərinin yüksək səviyyədə keçirilməsi ilə beynəlxalq aləmdə müsbət imic qazanıb. Paytaxt Bakımızın günü-gündən müasirləşməsi, ultra-modern infrastrukturun qurulması sayəsində Azərbaycan regionda biznes tədbirlərinin keçirildiyi unikal mərkəzə çevrilib".

Əlavə olunub ki, tam məsuliyyətlə deyə bilərik ki, Bakı şəhəri 2023-cü ildə Beynəlxalq Astronavtika Konqresi kimi mötəbər tədbirin də öhdəsindən layiqincə gələcək. Beynəlxalq Astronavtika Konqresi ölkəmizin tarixi-mədəni ənənələrini, multikultural dəyərlərini və turizm potensialını dünyaya nümayiş etdirməklə bərabər, Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması baxımından da böyük əhəmiyyət daşıyır".

**Nigar Orucova,**
***"İki sahil"***